

> ***Biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib və biz hər an hazır olmalıyıq ki, doğma torpaqlarımızı işğalçılardan azad edək. Əminəm ki, bu gün gələcək və Azərbaycan ərazi bütövlüyünü bərpa edəcək.***
>
> ***Prezident İlham ƏLİYEVİN***
> ***Cəmşid Naxçıvanski adına Hərbi Liseydəki çıxışından***
>
> **26 iyul 2019-cu il**

# “Ordumuz öz gücünü göstərir və göstərməlidir”

**Əslində, Azərbaycan Silahlı Qüvvələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, hərbçilərin peşəkarlığının , fiziki və psixoloji hazırlıq səviyyəsinin qaldırılması, hərbi arsenalımızın müasir silah-sursatla zənginləşdirilməsi prosesinə 1993-cü ilin payızından-ulu öndər Heydər Əliyevin Prezident seçilməsindən sonra start verilmişdir. Elə ümummilli liderimizin işğalçı dövlətlə təmas xəttində atəşkəs barədə razılığa nail olması da məhz həmin məqsədə xidmət edirdi. Bu istiqamətdə ən mükəmməl addımlar isə 2003-cü ilin payızından sonra atılmışdır.**







Azərbaycan Silahlı Qüvvələrinin son 15-16 ildə hansı şəkildə müasirləşdiyini, əsgərlərimizin döyüş qabiliyyətinin, vətənpərvərlik səviyyəsinin necə yüksəldiyini biz də yaxşı bilirik, beynəlxalq aləmdəki dostlarımız və bədxahlarımız da. Ancaq ekspertlərin fikrincə, həmin həqiqətləri ən yaxşı bilən məhz erməni əsgərləri, Ermənistan ordusudur. Çünki onlar 2016-cı ilin aprelində Azərbaycan Ordusunun qüdrətini əyani şəkildə, bilavasitə öz üzərlərində hiss ediblər. Həmin dörd günlük hərbi əməliyyatlardan sonra Ermənistan mətbuatı az qala bir il Azərbaycan əsgərinin qətiyyətli hücumundan vahiməyə düşərək silahını atıb qaçan ermənilərin şəkillərini paylaşırdı. Elə Ermənistan müxalifəti də “Bizim ordumuz Azərbaycan əsgərinin qarşısında heç bir həftə duruş gətirə bilmədi!, ” – deyə İrəvan rəhbərliyini dəfələrlə qınamışdı.

Bütün bunlar müasir Azərbaycan həqiqətləridir və həmin həqiqətlərin ərsəyə gəlməsində ulu öndər Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Yeri gəlmişkən, Prezident İlham Əliyev iyunun 26-da – Azərbaycan Silahlı Qüvvələri Günü Müdafiə Nazirliyinin Cəmşid Naxçıvanski adına Hərbi Liseyində yenidənqurma və əsaslı təmir işlərindən sonra yaradılan şəraitlə tanış olub və orada ulu öndər Heydər Əliyevin adı dəfələrlə çəkilib. Çünki həmin hərbi təhsil müəssisəsi də bilavasitə ulu öndərin qətiyyəti və prinsipiallığı nəticəsində yaranmış təhsil ocaqlarımızdandır.

Qeyd edilib ki, Cəmşid Naxçıvanski adına Hərbi Lisey 11 hektar ərazini əhatə edir. Burada tikinti, təmir və yenidənqurma işləri 2018-ci ilin fevral ayında başlanıb. Hərbi liseyin ərazisində qərargah binası, kursant yataqxanası, tibb məntəqəsi, hamam-camaşırxana-qazanxana kompleksi inşa edilib, eləcə də mövcud binalar əsaslı təmir olunub və qurğular yerləşdirilib. Hərbi liseydə üçmərtəbəli yeni qərargah binası inşa olunub. Ərazidə geniş yaşıllaşdırma işləri aparılıb, abadlıq tədbirləri görülüb. Binanın qarşısında Cəmşid Naxçıvanskinin büstü və ətrafında xatirə kompleksi yerləşir.

Prezident İlham Əliyev liseydə təhsil alan kursantların yaşayış və məişət şəraitinin yaxşılaşdırılması məqsədilə inşa olunan dördmərtəbəli yataqxana korpusu ilə tanış olub. Yeni tikilən binada konfrans zalı, ideoloji, məişət və digər otaqlar zəruri avadanlıqla təchiz edilib. Yataqxanada kursantların qalması, istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait var. Liseydə üçmərtəbəli yataqxana korpusu da əsaslı təmir olunub.

Xatırladılıb ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqəti sayəsində son illərdə Azərbaycan Ordusu istər döyüş qabiliyyətinə, istər maddi-texniki bazasına, istərsə də müasir silah-sursat arsenalına görə dünyada liderlər cərgəsindədir. Görülən işlərin nəticəsidir ki, bu gün ordumuz dünyanın ən güclü 50 ordusu sırasındadır.

Kursant və müəllimlərlə söhbət edən dövlət başçımız xatırladıb ki, ulu öndərin misilsiz xidmətləri Azərbaycan xalqının qəlbində daim yaşayır: “ Biz onun işini davam etdiririk. Ordu quruculuğu prosesi uğurla, sürətlə gedir. Müasir səviyyədə işlər görülür, hərbi texnika alınır, döyüş qabiliyyəti artır”.

Prezident vurğulayıb ki, bizim imkanlarımız artır, maddi vəziyyətimiz yaxşılaşır, orduya lazım olan texnika, silah-sursat alınır, gətirilir. Bir sözlə, biz bütün bu işləri ona görə edirik ki, daha güclü orduya malik olaq və öz ərazi bütövlüyümüzü bərpa edək.

Yeri gəlmişkən, bu il yanvarın 29-da Azərbaycan Gənclərinin Birinci Forumunun 20 illiyi münasibətilə ölkə gənclərinin bir qrupu ilə görüşən dövlət başçımız ordumuzun tarixi, bu günü və gələcəyi barədə maraqlı fikirlər səsləndirmiş, Azərbaycan gəncinin hərbi-vətənpərvərlik sahəsində göstərdiyi nümunələrdən məmnun olduğunu dilə gətirmişdi.

“Müstəqilliyimizin ilk illəri ölkəmiz üçün çox ağır keçmişdir. Erməni işğalı, torpaqlarımızın itirilməsi, Dağlıq Qarabağdan azərbaycanlıların qovulması, 1992-ci ilin may ayında Şuşa və Laçının işğal altına düşməsi, əlbəttə ki, bizim böyük faciəmizdir” – deyən Prezident tarixi faktları növbəti dəfə dilə gətirmişdi: ”Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır. Bu, bizim dədə-baba torpağımızdır. Heç vaxt Azərbaycan xalqı və dövləti bu vəziyyətlə barışmayacaq. Mən tam əminəm ki, biz ərazi bütövlüyümüzü bərpa edəcəyik, azərbaycanlılar öz doğma torpaqlarına qayıdacaqlar və Dağlıq Qarabağa, eyni zamanda, tarixi Azərbaycan torpaqlarına qayıdacaqlar. İndiki Ermənistan tarixi Azərbaycan torpağıdır”.

Dövlət başçımızın bu həqiqətləri bilavasitə hərbçi gənclərlə görüşdə dilə gətirməsi isə ondan xəbər verirdi ki, işğalda olan torpaqlarımızın azad edilməsi üçün ölkənin bütün potensialından istifadə olunacaq.

Başqa bir məqama diqqət yönəldək. Ötən il iyun ayının 26-da – Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə keçirilən təntənəli hərbi paradda nitq söyləyən dövlət başçımız Azərbaycan əsgərinin gücündən, peşəkarlığından böyük məmnunluqla söz açmışdı: “Ordumuzun döyüş qabiliyyəti artır. Mən dəfələrlə hərbi hissələrdə vəziyyətlə tanış olarkən qeyd edirdim ki, Azərbaycanda çox yüksək vətənpərvərlik ruhu var. Azərbaycan Ordusunun döyüş qabiliyyəti ən yüksək səviyyədədir və bunu yaxın tarix göstərir. İki il bundan əvvəl Ermənistan xalqımıza qarşı növbəti hərbi təxribat törətmişdir, bizim mövqelərimizi atəşə tutmuşdur, mülki əhaliyə qarşı təcavüz etmişdir. Həm hərbçilərimiz, həm mülki vətəndaşlar şəhid olmuşdur. Azərbaycan Ordusu işğalçını cəzasız qoymadı, onlara layiqli cavab verdi, onları yerinə oturtdu, uğurlu əks-hücum əməliyyatı keçirərək işğal edilmiş torpaqlarımızın bir hissəsini işğalçılardan azad etdi. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan azad edildi, iki min hektar ərazi təmizləndi. Uğurlu əks-hücum əməliyyatı nəticəsində minlərlə hektar torpağa bu gün Azərbaycan Ordusu nəzarət edir”.

“Ermənilərin torpaqlarımızda, işğal edilmiş torpaqlarda qazdıqları səngərlərdə bu gün bizim əsgərlərimiz xidmət edirlər” – deyən dövlət başçımız böyük fəxrlə yada saldı ki, Lələtəpədə bizim bayrağımız dalğalanır: “Ağdərə dağlarında bizim bayrağımız dalğalanır. Biz strateji yüksəklikləri əldə etmişik və bu, bizə çox böyük üstünlük verir. Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Azərbaycan əsgəri, zabiti, generalı – Azərbaycan Ordusu əsl qəhrəmanlıq, peşəkarlıq, rəşadət göstərmişdir. Bir daha göstərmişdir ki, Azərbaycan xalqı bu işğalla barışmayacaq. Bir daha göstərmişdir ki, Ermənistan tərəfindən onların ordusu ilə bağlı uzun illər ərzində yayılan nağıllar mif idi. Biz bu mifi darmadağın etdik. Biz onların illər boyu yaratdıqları “möhkəm müdafiə xətti”ni bir neçə gün ərzində yardıq, məhv etdik. Aprel döyüşləri tariximizin şanlı səhifəsidir”.

***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***